**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TƏSNİFATI**

# *NƏQLİYYAT STATİSTİKASI ÜÇÜN YÜK TƏSNİFATI (SİYAHISI)*

**AZT020-2005**

**Rəsmi nəşr**

**BAKI – 2005**

Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyində təsdiq edilmişdir
**Əmr № 042**
**" 23 " may 2005-ci il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin **11 may 2005-ci il** tarixli kollegiya qərarı ilə təsdiq edilmişdir

# *NƏQLİYYAT STATİSTİKASI ÜÇÜN YÜK TƏSNİFATI (SİYAHISI)*

***Bu təsnifat Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin icazəsi olmadan rəsmi nəşr kimi tam və ya qismən yenidən çap oluna, çoxaldıla və ya yayıla bilməz***

Azərbaycan Respublikası İqtisadi İnkişaf,
Kənd Təsərrüfatı, Səhiyyə, Nəqliyyat, Sənaye və Energetika nazirlikləri
ilə

**razılaşdırılmışdır**

**--------------------------------------------------------------------------------**

.

**Təsnifat "2003-2007-ci illərdə Azərbaycan Respublikasının dövlət statistika sistemində islahatların aparılmasına dair Dövlət Proqramı"na uyğun olaraq işlənib hazırlanmışdır.**

Təsnifat A.M.Vəliyevin rəhbərliyi ilə
A.H.Mansurov, R.A.Səlimov, Y.X.Yusifov və Q.F.Əliyev tərəfindən işlənib hazırlanmışdır.

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT**
**TƏSNİFATI**

**Nəqliyyat Statistikası üçün Yük Təsnifatı (siyahısı)**

**Classification of goods for transport statistics**

**AZT 020-2005**

**Tətbiq edilmə tarixi 2005-06-01**

# *GİRİŞ*

Nəqliyyat statistikası üçün yük təsnifatının birinci versiyası (siyahısı) (qısaldılmış adı: NST) ilk dəfə 1961-ci ildə Avropa Birliyinin Komissiyası tərəfindən yaradılmış və bu quruma üzv olan ölkələr tərəfindən tətbiq edilmişdir. Təsnifatın təkmilləşdirilməsi ilə bağlı BMT və digər beynəlxalq təşkilatların ekspertləri tərəfindən onun üzərində bir sıra dəyişikliklər aparılmış və o, 1 yanvar 1967-ci ildə dəyişikliklər nəzərə alınmaqla yenidən (qısaldılmış adı: NST/R) hazırlanaraq nəşr edilmişdir.

Əsas beynəlxalq statistik təsnifatların, o cümlədən "Malların təsviri və kodlaşdırılmasının Harmonik Sistemi"nin (orijinaldan adı: Harmonised Commodity Description and Coding Sistem - HS), "Fəaliyyət növü üzrə Məhsul Növləri Təsnifatı"nın (orijinaldan adı: The Classification of Products according to their Activities - CPA), "Bütün İqtisadi Fəaliyyət Növlərinin Beynəlxalq Standart Sahə Təsnifatı" (orijinaldan adı: İnternational Standart Classification of All Economic Activities – İSİC) və digər əsas təsnifatların beynəlxalq səviyyədə qəbul olunması və tətbiq edilməsi onlardan əvvəl qəbul olunmuş bir sıra təsnifatların, həmçinin "Yük təsnifatı"nın yenidən işlənməsini zəruri etdi. Çünki, yük təsnifatında təsnifləşdirmə və kodlaşdırma sistemi daha sonra yaradılmış müxtəlif əsas beynəlxalq təsnifatlarla müqayisəlilik və uzlaşma baxımından uyğun gəlmirdi. Bu məsələ BMT-də, AB-də işçi qrupları tərəfindən dəfələrlə müzakirə olunsa da, 2004-cü ilə qədər vahid qərara gəlinməmişdir. Azərbaycanda isə yüklərin növlər üzrə bölgüsü və qruplaşdırılması, statistika məlumatlarının müqayisəsi keçmiş SSRİ dövründə hazırlanaraq qəbul olunmuş "Yüklərin nomenklaturası" əsasında aparılırdı və bu sahə üzrə məlumatlar yalnız keçmiş sosialist ölkələrinin məlumatları ilə müqayisə oluna bilirdi. Azərbaycanın müstəqillik əldə etdiyi vaxtdan etibarən növlər üzrə yük daşınması haqqında statistika məlumatları beynəlxalq standartlara cavab vermədiyindən beynəlxalq səviyyədə müqayisəliliyi təmin etmək mümkün deyildir.

2003-cü ilin iyun ayında BMT-nin Avropa İqtisadi Komissiyasının İqtisadi və Sosial Şurasının 54-cü sessiyasında nəqliyyat statistikası üzrə işçi qrupunun və Nəqliyyat Statistikasının Əlaqələndirmə Komitəsinin 2000-ci ildə hazırladıqları

yük təsnifatının yeni, NST-2000 versiyasının layihəsini (TRANS/WP.6/145, bölmə 6-8) müzakirəyə çıxarmışdır. Şura nəqliyyat statistikasında tətbiq olunacaq bu təsnifatı müzakirə etmiş və onun layihəsinin Şuranın 55-ci sessiyasında (9-11 iyun 2004-cü il) təsdiq olunmasını nəzərdə tutmuşdur.

Nəqliyyat statistikası üzrə işçi qrupu tərəfindən hazırlanmış cari NST-2000 "Yük təsnifatı (siyahısı)" BMT-nin İqtisadi və Sosial Şurasının 55-ci sessiyasında baxılmış və tətbiqi məqsədəuyğun hesab olunmuşdur (TRANS/WP.6/147, bölmə 18-19). "Yük təsnifatı" NST-2000 əsasında hazırlanmış hazırki "Nəqliyyat statistikası üçün yük təsnifatı (siyahısı)"nın milli versiyası nəqliyyat statistikası sahəsində məlumatların mübadiləsini təmin etməyə imkan verir və əsas beynəlxalq təsnifatlarla uzlaşdırılmışdır. Nəqliyyat statistikası üçün yük təsnifatı (NSYT) Azərbaycanda milli versiyaları olan beynəlxalq təsnifatlarla - "Fəaliyyət növü üzrə Məhsul Növləri Təsnifatı"nın (Milli versiyası: Məhsul Növləri Təsnifatı) və "Bütün İqtisadi Fəaliyyət Növlərinin Beynəlxalq Standart Sahə Təsnifatı" (milli versiyası: İqtisadi Fəaliyyət Növləri Təsnifatı) ilə uzlaşdırılmışdır.

Təsnifat əsas etibarilə Avropa İqtisadi Birliyinin xarici ticarətlə bağlı təsnifatına (NİMEXE) əsalanaraq hazırlanmışdır. Eyni zamanda o, Avropada nəqliyyat statistikası üçün Əmtəə təsnifatı (CSTE), Malların təsviri və kodlaşdırılmasının Harmonik Sistemi (HS), Standart Beynəlxalq Ticarət Təsnifatı (SİTC), Kömrük tarifi təsnifatı (CCT) ilə əlaqəli hazırlanmışdır.

## Yük təsnifatının (siyahısının) quruluşu və kodun strukturu

Yük təsnifatının hazırlanmasında baza rolunu oynayan sonuncu təsnifat (NST-2000) 3 rəqəmlə işarələnmişdir. Təsnifatın quruluşu üç sütundan ibarətdir.

**I sütun ------------------------ kod hissəsi**

**II sütun ---------------------- yüklərin adı**

**III sütun ------------------- Məhsul Növləri Təsnifatının müvafiq kodları**

Kodlar hərf və rəqəm işarələrindən istifadə etməklə 2 səviyyədə qurulmuşdur:

**I** **səviyyə** - bölmə adlanmaqla kodun birinci iki rəqəmi ilə işarə olunur
**II** **səviyyə** - sinif adlanmaqla kodun tam üç rəqəmi ilə işarə olunur



Yük təsnifatından istifadəni asanlaşdırmaq məqsədilə, hər bir kod üzrə Məhsul Növləri Təsnifatının (CPA) milli analoquna keçidlər də verilmişdir.

| Kodlar | Yüklərin adı | MNT (Məhsul Növləri Təsnifatı) üzrə kod |
|---|---|---|
| ***01*** | ***Kənd təsərrüfatı yükləri, meşə təsərrüfatı və ov məhsulları, balıq və balıq məhsulları, diri heyvan və quşlar*** | ***01*** |
| 01.1 | Dənli bitkilər(buğda, qarğıdalı, çəltik, arpa, çovdar, yulaf, qarabaşaq və s.) | 01.11.1 |
| 01.2 | Kartof | 01.11.21 |
| 01.3 | Şəkər çuğunduru | 01.11.51 |
| 01.4 | Digər ərzaq və meyvələr (noxud, lobya, qoz, fındıq, nar, alma, armud, heyva, kələm, soğan, göyərti, alça və digər bu kimi məhsullar) | Digərləri 01.11.2 və 01.11.5, 01.12.1, 01.13.1, 01.13.2 |
| 01.5 | Meşə təsərrüfatı və meşə tədarükü yükləri (ağac, yanacaq üçün odun və s.) | 02 |
| 01.6 | Güllər və təbii bitkilər (güllər, şitil, tənək, ting və s.) | 01.12.2 |
| 01.7 | Bitki mənşəli digər yüklər (günəbaxan toxumu, pambıq çiyidi, ot, senaj, pambıq və s.) | Digəri 01.1 |
| 01.8 | Diri heyvan və quşlar (mal-qara, qoyun, keçi, at, qatır, donuz, quşlar, dovşan və s.) | 01.21.1, 01.22.1, 01.23.1, 01.24.1, 01.25.1 |
| 01.9 | Xam mal-qara və qoyun-keçi südü | 01.21.2, 01.22.2 |
| 01.A | Heyvan mənşəli digər xam məhsullar (heyvan yunu, yumurta və s.) | Digəri 01.2 |
| 01.B | Balıq və digər balıq məhsulları | 05 |

| | | |
|---|---|---|
| ***02*** | ***Daş və qonur kömür, torf, xam neft və təbii qaz, uran filizləri*** | ***02*** |
| 02.1 | Daş və qonur kömür, torf | 10 |
| 02.2 | Xam neft | 11.10.1, 11.10.4 |
| 02.3 | Təbii qaz | 11.10.2 |
| 02.4 | Uran filizləri | 12 |

| | | |
|---|---|---|
| ***03*** | ***Qara metal xammalı və mədənçıxarma sənayesinin digər məhsulları və karxana istehsalı yükləri*** | ***13;14*** |
| 03.1 | Dəmir filizləri | 13.1 |
| 03.2 | Qara metal (urandan başqa) filizlərindən başqa filizlər (mis, alüminium, qurğuşun, sink və s.) | 13.2 |

| **Kodlar** | **Yüklərin adı** | **MNT (Məhsul Növləri Təsnifatı) üzrə kod** |
|---|---|---|
| 03.3 | Kimya sənayesi və gübrələri üçün mineral yüklər | 14.3 |
| 03.4 | Duz | 14.4 |
| 03.5 | Qum, çınqıl, gil, digər daş növləri (abidə və tikinti üçün daş, mərmər, qranit, əhəng daşı, xırda çay daşı, çınqıl və s.) və minerallar | 14.1, 14.2 və 14.5 |

| | | |
|---|---|---|
| ***04*** | ***Yeyinti məhsulları, gön və dəri, içki və tütün yükləri*** | ***15;16*** |
| 04.1 | Ət, aşılanmamış gön və dəri, ət məmulatları (ət, quş əti, kolbasa, sosiska, ət konservi və s.) | 15.1 |
| 04.2 | Emal edilmiş və konservləşdirilmiş balıq və balıq məhsulları (kürü, balıq konservi və s.) | 15.2 |
| 04.3 | Emal edilmiş və konservləşdirilmiş meyvə və tərəvəz (şirələr, tərəvəz konservləri və s.) | 15.3 |
| 04.4 | Heyvan və bitki yağları, piylər | 15.4 |
| 04.5 | Süd məhsulları və dondurma (kərə yağı, pendir, şor, yoqurt, kəsmik və s.) | 15.5 |
| 04.6 | Üyüdülmüş taxıl məhsulları, nişasta, nişasta məhsulları (təmizlənmiş düyü, un, kraxmal, yemlər və s.) və heyvanlar üçün hazır qida məhsulları | 15.6, 15.7 |
| 04.7 | İçkilər (spirt, araq, şərab, pivə, mineral sular və s.) | 15.9 |
| 04.8 | Başqa kateqoriyalara daxil olmayan digər qida məhsulları və tütün məhsulları (ayrı-ayrı qrup şəklində və ya ədədlə daşınan yüklər istisna olmaqla) | 15.8, 16 |
| 04.9 | Ümumi qrup və ya ədədlə daşınan qida məhsulları və tütün məmulatları (siqaret və s.) | Müxtəlif 15 və ya 16 |

| | | |
|---|---|---|
| ***05*** | ***Toxuculuq sənayesi məhsulları, dəri və dəridən hazırlanmış məmulatlar*** | ***17;18;19*** |
| 05.1 | Toxuculuq sənayesi məhsulları (lif, iplik, parça, pərdə, yataq ağları və s.) | 17 |
| 05.2 | Geyim malları və xəz məmulatları (alt və üst geyimləri, əlcək və s.) | 18 |
| 05.3 | Aşılanmış dəri və dəridən məmulatlar (dəri, dəri çamadan və çanta, ayaqqabı və s.) | 19 |

| Kodlar | Yüklərin adı | MNT (Məhsul Növləri Təsnifatı) üzrə kod |
|---|---|---|
| ***06*** | ***Ağaç və ağacdan hazırlanmış məmulatlar (mebeldən başqa), sellüloz və kağız yüklər, çap məhsulları və informasiya daşıyıcıları*** | ***20;21;22*** |
| 06.1 | Ağac və ağac məmulatları (mebeldən başqa)şalban üçün tir, faner, parket və s.) | 20 |
| 06.2 | Sellüloz, kağız və kağız məhsulları (karton, tualet kağızı, yazı və divar kağızı və s.) | 21 |
| 06.3 | Çap məhsulları və informasiya daşıyıcıları (kitab, qəzet, jurnal, dəftər, disket və s.) | 22 |
| ***07*** | ***Koks və neftayırma məhsulları və nüvə yanacağı yükləri*** | ***23*** |
| 07.1 | Koks sobalarında hazırlanmış məhsullar (daş kömür, qatran və s.) | 23.1 |
| 07.2 | Emal olunmuş neftayırma məhsulları və tullantıları (benzin, ağ neft və s.) | 23.20.1, 23.20.4 |
| 07.3 | Qaz əmələ gətirən və sıxılmış neftayırma məhsulları | 23.20.2 |
| 07.4 | Bərk və yarımyumşaq neft məhsulları (neft koksu, bitum, maye qaz və s.) | 23.20.3 |
| 07.5 | Nüvə yanacağı | 23.3 |
| ***08*** | ***Kimyəvi yüklər, üzvi maddələr, rezin və plastik kütlə məmulatları*** | ***24;25*** |
| 08.1 | Əsas kimyəvi maddələr (oksigen, azot və digər təsirsiz qazlar, xlor, yod, xlorid turşusu, kaustik soda və s.) | 24.11, 24.12, 24.13 |
| 08.2 | Əsas üzvi kimyəvi maddələr (etilen, propilen və s.) | 24.14 |
| 08.3 | Gübrə və azot birləşmələri (təbii gübrələr istisna olmaqla) | 24.15 |
| 08.4 | İlkin plastik məmulatlar və emal olunmamış sintetik kauçuk | 24.16, 24.17 |
| 08.5 | Dərman məhsulları (aşqarlar və s.) və məişət-kimya məhsulları | 24.2-24.7 |
| 08.6 | Rezin və plastik kütlə məmulatı | 25 |
| ***09*** | ***Digər qeyri-metal yüklər*** | ***26*** |
| 09.1 | Şüşə və şüşədən hazırlanmış məmulatlar, keramik məmulatlar (butulka, bankə, saxsı və | 26.1-26.3 |

| Kodlar | Yüklərin adı | MNT (Məhsul Növləri Təsnifatı) üzrə kod |
|---|---|---|
| | s.) | |
| 09.2 | Sement, əhəng və gips | 26.5 |
| 09.3 | Digər istehsal olunmuş tikinti materialları (kərpic, beton, gips, dəmir-beton boru və s.) | 26.4, 26.6, 26.7, 26.8 |

| | | |
|---|---|---|
| ***10*** | ***Əsas metallar, maşın və nəqliyyat vasitələri istisna olmaqla hazır metal məhsulları*** | ***27;28*** |
| 10.1 | Dəmir və polad məhsulları, ferroərintilər və ilkin emaldan keçmiş dəmir və polad (borulardan başqa) | 27.1, 27.3 |
| 10.2 | Əlvan metallar və onlardan hazırlanmış məhsullar | 27.4 |
| 10.3 | Borular | 27.2 |
| 10.4 | Metal tikinti elementləri (konstruksiyalar) | 28.1 |
| 10.5 | İstilik qazanları, metallardan istehsal olunmuş digər yüklər (çən, metal alətlər və s.) | 28.2-28.7 |

| | | |
|---|---|---|
| ***11*** | ***Digər qruplara daxil edilməyən maşın və avadanlıqlar, kənd təsərrüfatı texnikası, elektrik avadanlıqları və radio və televiziya avadanlıqları, tibb aparatları və optik cihazlar*** | ***29;30;31;32;33*** |
| 11.1 | Kənd təsərrüfatı və meşə təsərrüfatı maşınları (traktor, kombayn, digər kənd təsərrüfatı texnikası) | 29.3 |
| 11.2 | Digər qruplara daxil edilməyən məişət cihazları (elektrik məişət cihazları) | 29.7 |
| 11.3 | Dəftərxana avadanlıqları və kompüterlər | 30 |
| 11.4 | Digər qruplara daxil edilməyən elektrik avadanlığı və aparatlar (elektrik mühərriki, kabel və s.) | 31 |
| 11.5 | Elektron ləvazimatları və radio-televiziya avadanlıqları | 32.1 və 32.2 |
| 11.6 | Televiziya və radio qəbulediciləri; səs və video yazan, onları səsləndirən və göstərən aparatlar və onlarla əlaqədar mallar | 32.3 |
| 11.7 | Tibbi cihazlar və alətlər, dəqiq və optika cihazları, qol və digər saatları | 33 |
| 11.8 | Digər avadanlıqlar, alətlər, silah və digər ehtiyat hissələri | 29.1, 29.2, 29.4, 29.5, 29.6 |

| Kodlar | Yüklərin adı | MNT (Məhsul Növləri Təsnifatı) üzrə kod |
|---|---|---|

| | | |
|---|---|---|
| ***12*** | ***Nəqliyyat vasitələri*** | ***34;35*** |
| 12.1 | Avtomobil sənayesinin məhsulları | 34 |
| 12.2 | Digər nəqliyyat avadanlıqları (vasitələri) | 35 |

| | | |
|---|---|---|
| ***13*** | ***Mebel, digər qruplara daxil edilməyən sənaye yükləri*** | ***36*** |
| 13.1 | Mebel və mebel tipli mallar | 36.1 |
| 13.2 | Digər sənaye məhsulları (zərgərlik işləri, idman avadanlıqları, oyuncaqlar) | 36.2-36.6 |

| | | |
|---|---|---|
| ***14*** | ***Məişət və kommunal tullantıları*** | |
| 14.1 | Məişət və kommunal tullantıları | Yoxdur |
| 14.2 | Digər tullantılar | Yoxdur |

| | | |
|---|---|---|
| ***15*** | ***Poçt və poçt göndərişləri*** | ***64*** |
| 15.1 | Poçt yükləri (bağlama və digər xırda göndərmələr) | 64.1 |
| 15.2 | Bağlama və xırda göndərmələr | Yoxdur |

| | | |
|---|---|---|
| ***16*** | ***Yüklərin nəqlində istifadə olunmuş avadanlıq və materiallar*** | |
| 16.1 | İstifadə olunmuş boş konteyner və açılan banlar | Yoxdur |
| 16.2 | İstifadə olunmuş altlıq və digər qablar | Yoxdur |

| | | |
|---|---|---|
| ***17*** | ***Ev və sərnişinlərin şəxsi əşyaları, təmir üçün aparılan nəqliyyat vasitələri, başqa qruplara daxil edilməyən digər qeyri-kommersiya yükləri*** | |
| 17.1 | Ev əşyaları | Yoxdur |
| 17.2 | Sərnişinlərin şəxsi əşyaları, baqaj | Yoxdur |
| 17.3 | Təmirə aparılan nəqliyyat vasitələri | Yoxdur |
| 17.4 | İstehsal avadanlığı, körpü, taxtabənd | Yoxdur |
| 17.5 | Başqa kateqoriyalara daxil edilməyən digər qeyri-kommersiya yükləri | Yoxdur |

| | | |
|---|---|---|
| ***18*** | ***Müxtəlif yığma (qarışıq) yüklər*** | |
| 18.0 | Müxtəlif yığma yüklər (sənaye, kənd təsərrüfatı və s. məhsullar) | Yoxdur |

| Kodlar | Yüklərin adı | MNT (Məhsul Növləri Təsnifatı) üzrə kod |
|---|---|---|
| ***19*** | ***Konteynerlərdə və açılan banlarda daşınan və digər identifikasiya olunmamış yüklər*** | |
| 19.1 | Konteynerlərdə və açılan banlarda daşınan digər identifikasiya olunmamış yüklər | Yoxdur |
| 19.2 | Digər identifikasiya olunmamış yüklər | |
| ***20*** | ***Digər yüklər*** | |
| 20.0 | Başqa kateqoriyalara daxil olunmayan digər yüklər | Yoxdur |

**MÜNDƏRİCAT**

Giriş........................................................................................................................3
Yüklərin adı...............................................................................................................6

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi
Baş Hesablama Mərkəzi. Sif.250. Nüsxə 250. 09.06.2005
Bakı şəhəri İnşaatçılar prospekti